# Ədliyyəmizin keçdiyi yol...

**Bu il ədliyyə orqanlarında - Ədliyyə Nazirliyinin 101 illik yubileyi qeyd edilir.**

Azərbaycan ədliyyəsinin zəngin tarixi vardır. Bütün hüquq sistemimizin inkişaf yollarını müəyyən edən bu tarixi keçmişi öyrənmək və əməkdaşları, xüsusilə gənc kadrları müsbət ənənələr ruhunda tərbiyə etmək məqsədilə Ədliyyə Nazirliyi tərəfindən ardıcıl işlər görülmüş, bu sahədə hələ 2001-ci ildə verilmiş xüsusi əmrə əsasən araşdırmalar aparılaraq, ədliyyə tarixi muzeyi yaradılmışdır.

Ədliyyənin tarixinin ən şərəfli anları 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır.

Onun fəaliyyətinə mühüm əhəmiyyət verilərək, məhz 1918-ci il mayın 28-də - Azərbaycan Demokratik Respublikasının elan olunduğu gün Ədliyyə Nazirliyi də təsis edilmiş, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuş, noyabrın 22-də isə nazirliyin Əsasnaməsi təsdiq edilərək, onun funksiya və səlahiyyətləri müəyyənləşdirilmişdir.

Bakı şəhərinin ən görkəmli binalarından birində - indiki "Səadət Sarayı" adlanan binada yerləşən Ədliyyə Nazirliyi tərəfindən ədliyyə, məhkəmə və istintaq orqanlarının fəaliyyəti üçün müvafiq infrastruktur yaradılmış, yeni hüquq sisteminin təşkili ilə bağlı bir çox əhəmiyyətli qərarlar qəbul olunmuş, mühüm qanun layihələri hazırlanaraq parlamentin müzakirəsinə çıxarılmışdır.

### *Ədliyyə tariximizdə*

fərəhli və unudulmaz hadisələrlə yanaşı, keşməkeşli səhifələr də olmuşdur. 1920-ci ildə ölkə işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilmiş, onun ayrı-ayrı funksiya və səlahiyyətləri müxtəlif dövlət orqanlarına həvalə edilmiş, bəzi hallarda isə bu səlahiyyətlərdən repressiya vasitəsi kimi istifadə edilmişdir.

Ədliyyə Nazirliyinin yenidən yaradılması 1970-ci ilə - görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Həmin vaxtdan nazirliyin sabit fəaliyyəti təmin olunmuş və onun gələcək inkişafı üçün əlverişli zəmin yaranmışdır.

Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdıqdan sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün




əsaslı tədbirlər həyata keçirilmiş, Ədliyyə Nazirliyinin üzərinə yeni mühüm vəzifələr qoyulmuş, onun cəmiyyətdə rolu və əhəmiyyəti artırılmış, nazirlik dövlətimizin hüquq siyasətini həyata keçirən əsas orqanlardan birinə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin hüquq siyasəti bu gün də uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin ədliyyə sisteminin inkişafına, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xüsusi diqqəti nəticəsində Azərbaycan ədliyyəsi öz inkişafının yeni mühüm mərhələsinə qədəm qoymuş, bu orqanların fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkcə son illər ərzində yüzlərlə normativ hüquqi akt qəbul edilmişdir.

Xüsusilə 2006-cı ildə qəbul olunmuş bir sıra sənədlər, o cümlədən ədliyyə orqanlarının vəzifə və səlahiyyətlərini, onların cəmiyyətdə mühüm rolunu təsbit edən Ədliyyə Nazirliyinin yeni Əsasnaməsi, ədliyyə orqanlarında qulluqkeçmə haqqında ayrıca qanun, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı kompleks tədbirlər müəyyən edən fərmanlar ədliyyə sisteminin inkişafında müstəsna tarixi əhəmiyyətə malikdirlər.

### *Ədliyyə işçilərində mənəvi stimul yaradılması*

və tarixi irsin qorunması məqsədilə ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuş və bu bayram ədliyyə işçiləri tərəfindən hər il böyük ruh yüksəkliyi ilə qeyd olunur.

Bu il isə Ədliyyə Nazirliyinin 101 illik yubileyidir. Azərbaycan ədliyyə sistemi milli dövlətçilik tarixinə və öz sələfinə böyük ehtiram əlaməti olaraq bu əlamətdar yubileyin yüksək səviyyədə və təntənəli keçirilməsini özünün tarixi vəzifəsi hesab edir.

**Hazırda ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi normativ hüquqi aktların hüquqi ekspertizasını, uçotunu və dövlət qeydiyyatını aparır; qanunvericiliyin təkmilləşdirilməsində iştirak edir, o cümlədən qanun layihələri hazırlayır və normativ sənədlərin layihələri üzrə rəylər verir, hüquqi maarifləndirmə işi aparır; hüquqi şəxslərin dövlət qeydiyyatını və dövlət reyestrini, mətbu nəşrlərin reyestrini aparır; notariat fəaliyyətinə rəhbərlik edir; vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatını həyata keçirir: dövlətlərarası övladlığa götürmə məsələlərini və sənədlərin leqallaşdırılmasını həyata keçirir; məhkəmə qərarlarının icrasının təmin olunmasını təşkil edir; məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmə statistikasının aparılmasını təmin edir; qeyri-kommersiya hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin (qərarlarının) qeydiyyatının aparılmasını, bunlarla yanaşı, həm də Azərbaycanda aparılan bütün növ məhkəmə (qeyri-tibb) ekspertizaları Ədliyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən elmi-tədqiqat mərkəzi olan İnstitut tərəfindən həyata keçirilir.**

**İslam Əhmədov,**
**Ağcabədi rayon qeydiyyat şöbəsinin rəisi**